**AR Ailə Məcəlləsi**

Maddə 12. Nikahın bağlanmasına mane olan hallar

- 12.0. Aşağıdakı şəxslər arasında nikahın bağlanmasına yol verilmir:
- 12.0.1. yaxın qohumlar (valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar);
- 12.0.2. övladlığa götürənlər və övladlığa götürülənlər;
- 12.0.2-1. qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları; (Bu maddə 2025-ci il iyulun 1-dən qüvvəyə minir.)
- 12.0.2-2. bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu; (Bu maddə 2025-ci il iyulun 1-dən qüvvəyə minir.)

## Beynəlxalq təcrübə

Çin, Tayvan, Şimali Koreya, Cənubi Koreya, Filippin və ABŞ-ın 24 ştatında baba və (və ya) nənəsi ümumi olan şəxslər arasında nikahların bağlanmasına qadağa qoyulub.
Almaniyada ailə qanunvericiliyinə əsasən 3-cü dərəcəli qohumlar arasında (yəni əmi və ya dayı və onun qardaşı və ya bacısı qızı, eləcə də bibi və ya xala və onun bacısı və ya qardaşı oğlu) nikahların bağlanmasına yol verilmir. Nikahın bağlanma şərtləri haqqında qanunun pozuntusuna yol verildiyi halda nikah etibarsız hesab edilir.
Tacikistan Respublikasının "Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı" haqqında Qanununda və Ailə Məcəlləsində edilən dəyişikliklərə əsasən 1 iyul 2016-cı il tarixindən etibarən qohumlar baba və (və ya) nənəsi ümumi olan şəxslər və eləcə də əmi, dayı, bibi, xala və onların uşaqları) arasında nikahlara qadağa qoyulub.

**Genofondumuzu qoruyaq!**

**Dünyaya sağlam körpələr gətirək!**

**Bu arzularımızın həyata keçməsini istəyiriksə, QAN QOHUMLARI arasında evliliklərə yol verməyək!**

**Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri üzrə
Dövlət Komitəsi**

**Ünvan: AZ 1000, Bakı şəhəri,
Ü.Hacıbəyli küç. 80, Hökumət Evi, IV Qapı
Tel: (+994 12) 493 79 62
E-poçt : office@family.gov.az**

AZƏRBAYCAN RESPUBLIKASININ AILƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRI ÜZRƏ DÖVLƏT KOMITƏSI

# Qan Qohumları arasında Evliliklər

## və ONUN FƏSADLARI

Qohumlar arasında evliliklər və onların törətdiyi fəsadlar digər ölkələrdə olduğu kimi bizim cəmiyyətdə da narahatlıq doğuran aktual ailə məsələlərindən biridir. Belə evliliklərin baş verməsi bir çox hallarda sağlamlıq imkanları məhdud olan uşaqların dünyaya gəlməsinə və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olur.
Elmi araşdırmalar göstərir ki, qan qohumları arasında baş verən evliliklər nəticəsində doğulan uşaqlarda genetik xəstəliklərin olması riski olduqca yüksəkdir və dünya əhalisinin bir qismi bu problemdən əziyyət çəkir. Qohum nikahların faiz dərəcəsi ümumi nikahların sayında aşağı olsa da, reallıqda dünyaya gələn əlilliyi olan uşaqların sayı çoxdur. Yad cütlüklər arasında nikahlar nəticəsində əlilliyi uşaqların doğulması riski 2-4%, qohum evliliklərdən risk 4-8 %-dək artır.
Təəssüflər olsun ki, Azərbaycanda da yaxın qohumlar arasında evliliklərə rast gəlmək mümkündür.

## Qan qohumları arasında evliliklərin fəsadları

Qan qohumları arasında evliliklər nəticəsində dünyaya gələn uşaqlarda ən çox rast gəlinən xəstəliklər:

- sinir sisteminin, eşitmə qabiliyyətinin pozulması, dəri xəstəlikləri;
- dayaq və hərəkət aparatının pozulması;
- qan xəstəlikləri (talassemiya, hemofiliya və s.);
- anadangəlmə psixi və fiziki inkişafda çatışmazlıqlar (başın, əl və ayaqların və yaxud qulaqların formasının anadangəlmə deformasiyası);
- tənəffüs orqanlarının xəstəliyi (astma, sinəgir xəstəliyi, təngənəfəslik, hipertoniya və s.).

Qohumlar arasında nikahların mənfi nəticələri Azərbaycan Respublikasının ailə qanunvericiliyində nəzərə alınmışdır.

## Qohum evliliyindən dünyaya gələn uşaqların xəstəliklərinin profilaktikası

Qan qohumları arasında evliliklərin mənfi nəticələrini nəzərə alaraq dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında Qanuna əsasən 1 iyun 2015-ci il tarixindən etibarən nikaha daxil olmaq istəyən vətəndaşlar tibbi müayinədən keçdiklərini təsdiq edən arayışı təqdim etməlidirlər, yəni icbari tibbi müayinədən keçməlidirlər.



- Nikaha daxil olmaq istəyən şəxslər siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən xəstəliklər üzrə tibbi müayinədən keçirlər.
- Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi, habelə həmin şəxslərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların müraciəti ilə yaşayış yeri üzrə dövlət və (və ya) bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir.
- Nikaha daxil olan şəxslərin tibbi müayinəsinin nəticələri həkim sirridir.

**(AR Ailə Məcəlləsi, Maddə 13)**

Nikahdan əvvəl icbari tibbi müayinənin tətbiqi sağlamlıq problemləri ilə, irsi genetik xəstəlilkərlə uşaqların dünyaya gəlməsinin qarşısının alınmasına və sağlam nəslin formalaşmasına şərait yaratmışdır.

Bundan əlavə, gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi, qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmənin aparılma prinsiplərini, vasitələrini, istiqamətlərini müəyyən etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyun 2020-ci il tarixli, 213 nömrəli Qərarı ilə **"Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"** təsdiq edilmişdir.

Qaydaya əsasən:

**2.1.2. qohumlar arasında nikah** – baba və (və ya) nənəsi ümumi olan şəxslər arasında bağlanılmış nikah;
**2.1.3. erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələri** – erkən və qohumlar arasında nikahın tibbi,psixoloji, fizioloji, mənəvi və sosial-iqtisadi fəsadları hesab edilir.

**Gələcək nəsillərin sağlamlığı və ölkəmizin demoqrafik təhlükəsizliyinin təmin edilməsi naminə qohum nikahlarının məhdudlaşdırılmasına dair qanunvericilikdə müəyyən dəyişikliklərin edilməsinə dair təklif verilib. 25 iyun 2024-cü il tarixdə Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında AR Qanunu qəbul edilib.**